# Fransa destruktiv siyasəti ilə özünü daha acınacaqlı vəziyyətə salacaq



**Son illər Fransanın fürsət əldə etdiyi bütün kürsülərdən Azərbaycana qarşı əsassız çıxışlarınn şahidi oluruq. Fransızlar nəinki çıxışlar edir, hətta ölkəmiz əleyhinə ədalətsiz, qərəzli qətnamələrin qəbuluna çalışırlar, müxtəlif tribunalarda bəyanatlar səsləndirirlər.**

Erməni lobbisinin pulundan istifadə edən bu ölkənin siyasətçiləri bunun qarşılığında Ermənistana guya dəstək nümayiş etdirir, onu təxribatlara təhrik edərək yenidən müharibə ocağı yaratmağa cəhd göstərirlər. Amma unudurlar ki, məğlub Ermənistan ordusunun Azərbaycan Silahlı Qüvvələri ilə yenidən üz-üzə gəlməsi bu ölkəni məhvə aparar.

Elə aprelin 5-də keçiriləcək üçtərəfli görüş ərəfəsində Fransanın Avropa və xarici işlər nazirinin Azərbaycan əleyhinə səsləndirdiyi fikirlər də qətiyyən təəccüb doğurmur. Bu, rəsmi Parisin riyakar, ermənipərəst siyasət yürütdüyünü sübut edən nümunələrdən biridir.

Milli Məclisin deputatı Kamilə Əliyeva "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, aprelin 2-də Fransanın Avropa və xarici işlər naziri Stefan Sejurnenin Parisdə ABŞ Dövlət katibi ilə mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi əsassız ittihamlar rəsmi Parisin Cənubi Qafqaz regionunda yeni müharibə ocağı yaratmaq, Azərbaycanla Ermənistan arasında sülhün yaranmasına mane olmaq siyasəti həyata keçirmək istəyinin bariz nümunəsidir.

Deputat qeyd edib ki, Ermənistan Azərbaycan torpaqlarını 30 ilə yaxın müddətdə işğal altında saxladığı zaman azərbaycanlılara qarşı soyqırımı aktları törədəndə, bir milyon soydaşımızı doğma evindən qovanda Fransa İrəvana təzyiq göstərmək əvəzinə bu ölkəni müdafiə edib: "Fransa bu gün də bu cür cinayətlər törətmiş Ermənistanı sülhsevər dövlət kimi qələmə vermək niyyətindədir. Ermənistanı silahlandıran Fransa və müttəfiqləri Cənubi Qafqazda ikinci Ukrayna cəbhəsi açmaq məqsədi güdürlər. Bu gün də ABŞ-Aİ-Ermənistan arasındakı görüşdə Ermənistanın silahlandırılması və Azərbaycana təsir göstərmək niyyəti nəzərdə tutulur".

K.Əliyeva bildirib ki, Azərbaycanın dünyada artan nüfuzu Fransa və bir sıra Qərb dövlətlərini çox narahat edir. Ölkəmizin COP29 kimi nüfuzlu beynəlxalq tədbirə evsahibliyi etməsi ərəfəsində Fransanın bu cəhdləri Azərbaycanın nüfuzuna zərbə vurmaq məqsədi güdür.

Parisin ölkəmizə qarşı düşmənçilik siyasətinin nə ona, nə də havadarlıq etdiyi Ermənistana fayda verəcəyini vurğulayan deputat qeyd edib ki, beynəlxalq aləmdə onsuz da nüfuzunu itirən Fransa Azərbaycana qarşı həyata keçirdiyi destruktiv siyasəti sayəsində daha acınacaqlı duruma düşəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 5 aprel, № 70.- S.10.